(Əvvəli 6-cı səhifədə).

rə 3764 litr pestisid verilmişdir.

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır.

Rayonda fəaliyyət göstərən 4 özəl toxumçuluq təsərrüfatlarının 1081,1 hektar əkin sahəsində aprobasiya aparılmış, 958,3 hektar sahədə məhsulun toxum üçün yararlı olduğu müəyyən edilmişdir. Ötən il toxumluq sahələrin məhsuldarlığı 43 sentner olmuşdur.

Hazırda rayonda kifayət qədər kənd təsərrüfatı texnikasının olduğu 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir. Bundan əlavə 416 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı maşınları da mövcuddur. Bütövlükdə rayonda 63 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı və 398 ədəd təkərli traktor, 24 ədəd buldozer, 47 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası vardır. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

Hesabat dövründə iribuynuzlu mal-qaranın sayı 45511 baş, o cümlədən inək və camışların sayı 22550 baş, qoyun-keçilərin sayı 189919 baş, donuzların sayı 750 baş olmuşdur.

Ötən il rayonda ət istehsalı (diri çəkidə) 6265 ton, süd istehsalı 40472 ton, yumurta istehsalı 22956 min ədəd, yun istehsalı isə 413 ton olmuşdur.

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra sakinlərin ətə və südə olan tələbatının ödənməsində müsbət dəyişikliklər baş vermişdir.

Mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün rayonda 7 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Ötən il ərzində süni mayalama mütəxəssisləri tərəfindən 7771 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalanmış heyvanlardan 4348 baş yüksək genetik potensiala malik buzov alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər baş buzova subsidiya verilir. 2018-ci il ərzində süni mayalanmadan alınmış 2382 baş buzova 238000 manat məbləğində subsidiya ödənilmişdir.

Ötən il qızılbalıqyetişdirmə zavodunda təbii su hövzələrinə, Xəzər dənizinə və Kür çayına buraxılmasını təmin etmək məqsədilə 82000 ədəd kürü alınmışdır. Hazırda müəssisədə kürüdən çıxan balıq süfrələrinin bəslənməsi prosesi davam etdirilir.

Rayonda heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə–profilaktika işləri aparıldığından hazırda epizootik durum sabitdir.

Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzi tərəfindən ötən il 93,3 hektar ərazidə meşə əkini işləri aparmış, 10 min ədəd fındıq tingləri əkilmiş, 3695 kq ağac və kol toxumu tədarük olunmuşdur. Bu müddət ərzində 445,4 min ədəd tut, 79 min ədəd qoz, 59,2 min ədəd şabalıd, 12,9 min ədəd ərik və 2,1 min ədəd alma tingləri yetişdirilmşdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2018-ci il ərzində rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmaqla vətəndaşların müraciətlərinə operativ şəkildə baxılması təmin edilmişdir.

Bu dövrdə rayon icra hakimiyyətinə ümumilikdə 830 ərizə daxil olmuşdur. O cümlədən 327 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 13 ərizə Milli Məclisdən, 12 ərizə Nazirlər Kabinetindən, 60 ərizə digər mərkəzi icra hakimiyyəti orqanlarından, 367 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən onların mənzillə təmin olunması, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

Ötən il ərzində vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, 2018-ci il ərzində 793 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də hesabat dövrü ərzində rayon icra hakimiyyəti başçısının 38 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 3182 nəfər iştirak etmişdir. Onlardan 263 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 235-i həll edilmiş, 12 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 16 məsələnin həlli istiqamətində respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalrının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində 2019-cu ildə qarşıya qoyulan vəzifələrin icra olunacağına əminliyini ifadə edən ölkə başçısı bildirmişdir ki, vergi və gömrük sahəsində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Dövlətimizin başçısı həmin sahələrdə şəffaflığın, dürüstlüyün təmin edildiyini, korrupsiyaya qarşı güclü mübarizə aparıldığını, sağlamlaşdırma prosesinin getdiyini və artıq gözəl nəticələrin əldə edildiyini vurğulamışdır.

Bu il də infrastruktur layihələrinin icra ediləcəyini deyən cənab İlham Əliyev qazlaşdırma, içməli su təminatı, yolların salınması, meliorativ tədbirlərin görülməsi, məcburi köçkünlərin, şəhid ailələri və Qarabağ əlillərinin, həmçinin hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin həyata keçiriləcəyini bildirmişdir.

2019-cu ildə yeni məktəblərin, tibb müəssisələrinin, olimpiya idman komplekslərinin, "ASAN xidmət" mərkəzlərinin, xalça fabriklərinin tikiləcəyini deyən cənab İlham Əliyev sahibkarlığın inkişafı ilə bağlı əlavə addımların atılacağını, xaricdə yeni ticarət evlərinin açılacağını diqqətə çatdırmış, ölkədə masir sənaye parklarının və məhəllələrinin yaradılmasının əhəmiyyətinə toxunmuş, kənd təsərrüfatında, həmçinin turizm sahəsində islahatların müsbət nəticə verəcəyinə əmin olduğunu bildirmişdir.

Sonda Prezident cənab İlham Əliyev böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ili "Nəsimi İli" elan etmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2018-ci il ərzində rayonumuzda görülən ümumi işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2019-cu ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanvarın 11-də keçirilən 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında verdiyi göstəriş və tövsiyələrinin, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**

# Xidmətin yaranmasının ildönümünü qeyd olunub



Qəbələdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının yeddinci ildönümü qeyd olunub.

Mərasimdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, SHXÇDX rayon şöbəsinin kollektivi, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, ulu öndərin əziz xatirəsini ehtiramlarını bildiriblər.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin rəisi mayor Rahim Ağayev xidmətin əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib.

Rahim Ağayev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələr kimi, ordu quruculuğunun da uğurla aparıldığını diqqətə çatdırıb.

**"Qəbələ"**

# Xocalı-əsrin faciəsi

1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər tərəfindən törədilən Xocalı soyqırımından 27 il ötür.

Erməni silahlı birləşmələri SSRİ dövründən Xankəndi şəhərində dislokasiya olunmuş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə 1992-ci il fevralın 25-də Xocalı şəhərinə hücuma keçib. Mühasirəyə alınan şəhərin 2500 sakini xilas olmaq üçün Ağdam istiqamətində hərəkət edib. Lakin pusquda dayanan ermənilər dinc sakinləri güllələbaran ediblər. Əsrin faciəsi olan Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Rəsmi hesablamalara görə, erməni silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına külli miqdarda ziyan vurulub.

Xocalı soyqırımının ildönümü hər il Azərbaycanda və dünyanın bir çox ölkələrində




hüznlə qeyd olunur. Azərbaycan səfirlikləri və diaspor təşkilatları hər il fevralın 26-da fəaliyyət göstərdikləri ölkələrdə anım mərasimləri təşkil edir, konfranslar keçirilir. Bu tədbirlərdə ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən foto-stendlər, sənədli filmlər nümayiş olunur, soyqırımı həqiqətlərini əks etdirən kitablar sərgilənir.

2008-cu ilin mayından isə İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət" kampaniyası keçirilir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsi və beynəlxalq səviyyədə anılmasını təmin etməkdir.

**"Qəbələ"**